# Ağsu: Səyyar qəbullar inkişafın stimuluna çevrilir

***Son zamanlar Ağsuda şahidi olduğum proseslər barədə yazı hazırlamaq istəyəndə dövlət başçımızın rayonlara yeni rəhbər təyin edərkən onlara verdiyi tövsiyə və tapşırıqlara istinad etmək istədik. Çünki məmurların vəzifə borclarını layiqincə yerinə yetirməsi Prezident İlham Əliyevin daim diqqət yetirdiyi məsələlərdəndir. Dövlət başçısı dəfələrlə öz nitqlərində layiqli məmuru səciyyələndirən keyfiyyətləri xarakterizə edərək, fəaliyyətində nöqsanlara yol verən şəxsləri törətdikləri əməllərdən çəkinməyə çağırıb.***

***Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla, bütün dövlət məmurları xalqın xidmətçisidir. Məhz buna görə biz bu vəzifədəyik. Buna görə xalq mənə etibar edib və mən təyin etdiyim bütün kadrlardan bunu tələb edirəm... Siz, eyni zamanda, öz davranışınızla insanların hörmətini qazanmalısınız. Təvazökar olmalısınız, həm işdə, həm məişətdə, həm özünüz, həm yaxın qohumlarınız. İnsanları qıcıqlandıra biləcək addımlar atmamalısınız. Özünüzü hamıdan yuxarıda hiss etməməlisiniz.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***





Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun Pirhəsənli kəndində keçirdiyi növbəti səyyar qəbul da cənab Prezidentin həmin tezislərinin icrası kimi başa düşülürdü. Əvvəlcə xatırladım ki, Ağsuda hər ay azı iki kənddə səyyar qəbul keçirilir. Bu yazını isə bir qəbulun timsalında rayonda fəaliyyət göstərən dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması məsələləri üzərində qurmağı qərara aldıq.

Məlum olduğu kimi, səyyar qəbulların keçirilməsi, vətəndaşların qaldırdıqları məsələlərin operativ həlli, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlərin görülməsi daim rayon icra hakimiyyətinin nəzarətində saxlanılır. Belə tədbirlər barədə vətəndaşların məlumatlandırılması üçün aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilir, yerlərdə keçiriləcək qəbulların cədvəli əvvəlcədən təsdiq olunur, qəbullarda iştirak edəcək RİH aparatının məsul işçilərinin, müvafiq idarə və təşkilat rəhbərlərinin və digər aidiyyəti qurumların nümayəndələrinin siyahısı tərtib olunur. Bütün səyyar qəbullar isə son nəticədə məmur –vətəndaş münasibətlərinin yüksək səviyyədə qurulmasına xidmət edir.

Xatırldaq ki, bu ilin birinci yarısında Ağsuda 16 səyyar qəbul keçirilib. Biz mətbuat təmsilçiləri də həmin tədbirlərin hamısında olmasa da, bir çoxunda iştirak edirik. Rayon icra hakimiyyətindən aldığımız məlumatda bildirilir ki, qəbullarda 1000-dək sakin iştirak edib və 514 müraciət dinlənilib. Onu da xüsusilə xatırlatmaq zərurəti var ki, səyyar qəbullarda qaldırılan məsələlərin əksəriyyəti həllini tapır. Digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün aidiyyəti idarə və müəssisə rəhbərlərinə müvafiq tapşırıqlar verilir, həlli mümkün olmayan məsələlərlə bağlı vətəndaşlarla geniş izahat işi aparılır.

Qeyd etdiyimiz kimi, bu yazını 16 səyyar qəbuldan ancaq birinin üzərində qururuq. RİH başçısının hüquq-mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə 854 təsərrüfatı, 3764 nəfər əhalisi olan Pirhəsənli dairəsində keçirilən növbəti səyyar qəbulda vətəndaşlar tərəfindən Qaraqaşlı kəndində yeni tikilmiş fərdi yaşayış evlərinə gedən kənddaxili avtomobil yolunun asfaltlaşdırılması, elektrik təchizatının yaxşılaşdırılması, işlə təminat, suvarma arxlarının bərpası, subartezian quyusunun və zəlzələdən ziyan çəkmiş fərdi yaşayış evinin təmiri ilə bağlı xahiş və təkliflər səsləndirilib, həmçinin bir sıra digər yerli əhəmiyyətli məsələlər həll qaldırılıb.

Qeyd edək ki, vətəndaşların müraciətlərinin bir qismi elə həmin gün, yerində həll olunub. Bəzi müraciətlər nəzarətə götürülüb və onların həlli ilə bağlı rayon icra hakimiyyəti başçısı tərəfindən aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verilib.



R. Bağırov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tərəqqisi, xalqımızın rifahının daha da yaxşılaşdırılması istiqamətində görülən çoxşaxəli işləri qeyd edərək, respublikamızda, o cümlədən Ağsu rayonunda həyata keçirilən işlər barədə sakinlərə geniş məlumat verib. Bildirib ki, dövlət başçımızın rəhbərliyi ilə respublikamızda ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş ictimai-siyasi sabitlik daha da möhkəmlənib, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olunub, dövlət idarəçiliyinin effektivliyi möhkəmlənib, müstəqil respublikamızın beynəlxalq nüfuzu getdikcə artıb, demokratik təsisatlar möhkəmləndirilib. Son 19 ildə ölkənin sosial-mədəni və təsərrüfat infrakstrukturu tamamilə yenilənib, əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilib, ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi islahatlar aparılıb.

Xatırladaq ki, bu ərazi dairəsi Pirhəsənli və Qaraqaşlı kəndlərini birləşdirir. Əhalisi 3764 nəfər, ərazisi 1574 hektardır. Həmin torpaqlardan 672 hektar bələdiyyə mülkiyyəti, 820 hektar xüsusi mülkiyyət, 82 hektar dövlət mülkiyyətidir. Kəndlər yüz faiz qazlaşdırılıb. Eləcə də, elektrik təminatı yüz faizdir. Ərazi dairəsinin içməli suyu Padar kəndi ərazisindəki “Bilal Əfəndi” su hövzəsində qazılmış subartezian quyuları vasitəsi ilə təmin olunur. Əkin sahələrinin suvarılma suyu isə Girdimançay və Ağsu çayından götürülür.

İkinci Qarabağ müharibəsindən əvvəl – 2020-ci ildə Pirhəsənli kəndində Heydər Əliyev Fondu tərəfindən 60 yerlik uşaq bağçası tikilib. Ərazi dairəsində 1 həkim məntəqəsi, 1 kitabxana, 1 məscid, 1 ATS fəaliyyət göstərir. Pirhəsənlidə 347 evdə sabit telefon xəttindən, 292 evdə internetdən, Qaraqaşlıda isə 167 evdə sabit telefon xəttindən, 138 evdə internetdən istifadə edilir. Bu göstəriciləri xatırlatmaqda məqsədimiz bugünkü Azərbaycan həqiqətlərini bir ərazi dairəsinin timsalında nəzərə çatdırmaqdır.

Təbii ki, Ağsu aqrar rayonlarımızdandır. Bu rayondan söz açarkən kənd təsərrüfatını yada salmamaq mümkün deyil. İcra hakimiyyəti başçısının hələlik sonuncu səyyar qəbulu keçirdiyi Pirhəsənlidə 2022-ci ilin məhsulu üçün 400 hektar sahədə buğda, 210 hektar sahədə arpa əkilib. İlkin nəticələr göstərir ki, məhsuldarlıq pis deyil. Fərdi təsərrüfatlarda 1191 baş qara mal, 2658 baş davar, 12544 baş quş, 419 arı ailəsi vardır.

Bu kəndlər rayonun və ölkənin ictimai-siyasi həyatına da öz töhfələrini verirlər. Birinci Qarabağ müharibəsində 1 nəfər pirhəsənli şəhid, 2 nəfər qazi olmuşdu. İkinci Qarabağ müharibəsində isə 16 nəfərdən çox pirhəsənli hərbi qulluqçu iştirak edib, 1 nəfər şəhid, 3 nəfər qazi var.

Səyyar qəbulda 70 nəfər iştirak edib. Həmin sakinlərdən biri – Ağacan Eyyubov qızının müvafiq işlə təmin olunması xahişini dilə gətirdi. Rayon rəhbərinin müvafiq qurum rəhbərləri ilə məsləhətləşməsindən sonra Ağacan Eyyubovun müraciəti nəzərə alınaraq, qızına Ağsu şəhərində fəaliyyət göstərən “Mega Sığorta” şirkətində kompüter mütəxəssisi vəzifəsində işləmək təklif edildi.

Əlixan Hüseynov və onunla həmfikir olan 8 nəfər rayon rəhbərindən xahiş etdilər ki, Qaraqaşlı kəndində yeni tikilmiş fərdi yaşayış evlərinə gedən yolun asfaltlaşdırılmasına kömək göstərilsin. Vətəndaşlara izah olundu ki, həmin yolun asfaltlaşdırılması bu ilin planına salınmışdır və tender proseduru başa çatdıqdan sonra icra ediləcək.

Sakin Mətləb Bədəlov və onun 12 həmfikiri kənd ərazisindən keçən Acıdərə arxının lildən təmizlənməsinə kömək göstərilməsini xahiş etdilər. Çox qısa müzakirədən sonra vətəndaşlara bildirildi ki, tezliklə həmin arx lildən təmizlənərək istifadəyə veriləcək.

Şahid Məlikov və 10 nəfər digər sakin Pirhəsənli kəndinin bir hissəsində güclü küləklər nəticəsində tez-tez elektrik enerjisinin verilişində fasilələr olduğunu bildirməklə köhnəlmiş işıq naqillərinin dəyişdirilərək yeni SİP kabellərlə əvəz olunmasını xahiş etdilər. Vətəndaşlara izah olundu ki, Pirhəsənli kəndində 2023-ci ilin sonundadək açıq məftillər SİP kabellərlə əvəz olunacaqdır.

Ramil Mirzəağa oğlu və 5 nəfər Qaraqaşlı kəndində mövcud subartezian quyusunun nasosunun yararsız olduğunu bildirərək, həmin nasosun təmir olunmasını xahiş etdilər. Sakinlərə izah olundu ki, həmin subartezian quyusunun nasosu qısa müddət ərzində təmir olunaraq vətəndaşların istifadəsinə veriləcəkdir.

Bu qəbildən olan təxminən 15 müraciətin heç birinə “mümkün deyil” cavabı verilmədi. Bu isə o deməkdir ki, vətəndaşın rayon rəhbərliyi ilə görüşə böyük həvəslə gəlməsi təsadüfi deyil. Artıq hamı yaxşı bilir ki, məmurlar dövlət başçısının “İnsanların yanına gedin, onların problemləri ilə tanış olun!” tövsiyəsini məsuliyyətlə icra edirlər.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***